**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI ELMİ – TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**QURBANOV FİRUZ ƏHMƏD oğlu**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ XARİCİ-İQTİSADİ AMİLLƏRİ

**İxtisas: 5312.01– "sahə iqtisadiyyatı"**
**5310.01- "dünya iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

**Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Nazirliyi "Qərbi Kaspi" Universitetində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Vəliyev Dünyamalı Əmir oğlu**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi
**Əlirzayev Əli Qənbərəli oğlu**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Hüseyn Ramil Zahid oğlu**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Aqrar Universiteti

Müdafiə "_____".__________2017-ci ildə saat ____ -da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N. Nərimanov rayonu, Az. 29, 8-ci döndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi - Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ___________ 2017-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru: V. R . Rzayev**

**Çapa imzalanıb: 18. 10. 2017**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun "Elmi əsərlərinin" buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**

**Gurbanov F.A.**

**Foreign economic factors of tourism development in Azerbaijan in the context of globalization**

## SUMMARY


The thesis consists of the preface, three chapters and conclusion and used literature list.

**In the preface** the urgency of the topic is grounded, researching level is defined, the aim and duties, theoretical – methodological bases, information base of investigation are defined, and its scientific innovation and practical importance are shown.

**I**n the first chapter, entitled “Theoretical and methodological foundations of tourism development in the context of globalization”, the essence, peculiarities and socio-economic role of it are considered, the classification of factors influencing the development of tourism in the region is given, and the development trends of international tourism in the region are studied.

Here, the factors of sustainable development of tourism in the region and their interrelations are explored. The positive and negative aspects of globalization are revealed, and the obligations of national tourism organizations are examined.

In the second chapter, entitled “Assessment of the current state of tourism in Azerbaijan”, the state of tourism activity is analyzed, investment investment in the tourism sector is assessed, and the role of innovations in the development of tourism is examined.

Here, the state of incomes and expenditures of tourist enterprises in the dynamics is estimated. The investment and innovation potential of the tourism sector is explored.

In the third chapter, entitled “Ways of effective development of tourism in the context of globalization”, a conceptual model of effective development of tourism in Azerbaijan will be developed, an organizational and economic model of tourism development will be prepared.

It is noted the need to create an innovative investment fund. Based on the innovative approach, a mechanism for the effective development of tourism has been developed.

The concluding part of the work gives the conclusions and proposals received as a result of the research.




## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Turizm sektoru dünyada xüsusi yerə malik olmaqla beynəlxalq xidmətlər ticarətinin dinamik inkişaf edən sahələrindəndir. Turizm əhalinin istirahətə, onun həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsinə və tələbatının ödənilməsinə yönəldilən xidmət sahələrindən biridir. Ümumdünya turizm təşkilatının məlumatlarına görə 2016-cı ildə beynəlxalq turist gəlmələrinin sayı 3.9% artmış və gəlir 1.235 mlrd. ABŞ dolları təşkil etmişdir. Bu təşkilatın proqnozuna əsasən 2017-ci ildə dünyada beynəlxalq turizmin 3-4% artması gözlənilir. Dünyada 75 ölkə turizmdən 1 mlrd. ABŞ dolları gəlir əldə etmiş, valyuta daxilolmaları isə 14% təşkil etmişdir. Müasir şəraitdə qloballaşma və resursların məhdudluğu, qlobal sosial-iqtisadi hadisə kimi, turizmin intensiv inkişaf meyllərini qoruyub saxlamaq, turistlərin artan və dəyişən tələbatlarını ödəmək məqsədilə müxtəlif yanaşma və üsulların axtarılması zəruridir. Bu yollardan biri müxtəlif amillərin təsir dərəcəsini müəyyən etməklə turizmin inkişaf prosesinə innovasiyalı yanaşmadan istifadə edərək turizm sektorunda təkrar istehsal prosesinin fasiləsiz, davamlı inkişafını təmin etməkdir. Lakin qeyd edək ki, qloballaşma şəraitində turizmin səmərəli inkişafına təsir edən amillərin öyrənilməsinə, yeni istiqamətlərin müəyyən edilməsinə ədəbiyyatda az yer ayrılmışdır. Bu isə öz növbəsində innovasiyalı qərarların tətbiq edilməsi zəruriliyini əsaslandırır. Bu məsələlərin kifayət qədər işlənməməsi dissertasiya mövzusunun aktuallığını gücləndirir və regionda turizmin innovasiya yanaşması əsasında səmərəli inkişafın təmin edilməsinin obyektiv zəruriliyini göstərir.

**Tədqiqatın işlənmə səviyyəsi.** Azərbaycanda turizm sektorunun ayrı-ayrı aspektlərinin öyrənilməsinə, xüsusilə onun qloballaşma şəraitində amillərin təsirini öyrənməklə innovasiyalı yanaşma əsasında kompleks tədqiqinə həsr edilən işlərin olmaması baxımından dissertasiya işi özlüyündə aktual bir mövzuya həsr edilmişdir. Azərbaycanda bu problemin müxtəlif aspektləri iqtisadçı alimlərdən Z. A. Səmədzadə, A. F. Musayev, S. V. Salahov, H. A. Xəlilov, Ə. Q. Əlirzayev, N. Ə. Cavadov, A. A. Salmanov, R. M. Qasımov, F. P. Rəhmanov, Y. Zeynallı, B. Ə. Bilalov, S. H. Rəhimov, H. B. Soltanova, V. S. Dərgahov, S. B. Əliyev, M. Ə. Məmmədova, E. Ə. Quliyev, R. Z. Hüseyn və s. əsərlərində əks etdirilmişdir. Xarici ölkə alimlərindən isə L. V. Vasilyeva,

V. S. Boqolyubova, S. A. Sevastyanova, P. Druker, L. K. Quryeva, V. A. Kvartalnov, N. İ. Kabuşkin, V. S. Kabakova, R. A. Fatxutdinov, O. T. Lebedev və başqaları turizmin regionda davamlı inkişafına həsr edilmiş tədqiqatlar aparmışlar.

Problemin aktuallığı və kifayət qədər tədqiq edilməməsi dissertasiyanın mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədini qloballaşma şəraitində Azərbaycanda turizmin inkişafının xarici-iqtisadi amillərinin regionda innovasiyalı yanaşma əsasında təhlil etməklə cəmiyyətin dəyişməkdə olan tələbatına uyğun turizmin səmərəli inkişafının təşkilatı-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyələrin işlənməsi təşkil edir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- turizmin mahiyyəti, xüsusiyyətləri və sosial-iqtisadi sistem kimi nəzəri əsaslarının müəyyənləşdirilməsi;
- turizmin davamlı inkişafına təsir edən amillərin sistemləşdirilməsi;
- regionda turizmin inkişafında innovasiyanın yerinin və rolunun müəyyənləşdirilməsi;
- turizmdə tətbiq edilən innovasiyaların formalaşma mənbələrinə görə təsnifləşdirilməsi;
- turizmin mövcud vəziyyətinin təhlil edilməsi və qiymətləndirilməsi;
- regional turizmin inkişafına investisiya qoyuluşunun rolunun qiymətləndirilməsi;
- Azərbaycanda turizmin səmərəli inkişafının konseptual modelinin hazırlanması;
- ölkədə turizmin inkişafının SWOT təhlilinin nəticələrinin qiymətləndirməsi;
- turizmin regionda davamlı inkişafının təşkilati-iqtisadi modelinin hazırlanması;
- ölkədə turizmin inkişafı istiqamətində təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini turizm sektorunun innovasiyalı inkişafını təmin edən xarici iqtisadi amillər təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini qloballaşma şəraitində xarici iqtisadi amillərin təsiri ilə turizmin inkişafı prosesində yaranmış iqtisadi münasibətlərin məcmusu təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** turizmlə bağlı yerli və xarici



**Гурбанов Ф.А.**

**Внешне экономические факторы развития туризма в Азербайджане в условиях глобализации**

## РЕЗЮМЕ


Диссертационная работа состоит из введения, трех глав, выводов и списка использованной литературы.

**Во введении** обоснована актуальность темы, определены цель и задачи исследования. Здесь также показаны научная новизна и практическая значимость, апробация результатов исследования.

**В первой главе, названной «Теоретико-методологические основы развития туризма в условиях глобализации»** рассматриваются сущность, особенности и социально-экономическая его роль, дается классификация факторов, влияющих на развитие туризма в регионе, исследуются тенденции развития международного туризма в регионе.

Здесь исследуются факторы устойчивого развития туризма в регионе и их взаимосвязь. Раскрываются положительные и отрицательные стороны глобализации; рассматриваются обязательства национальных туристических организаций.

**Во второй главе**, названной «Оценка современного состояния туризма в Азербайджане» анализируется состояние туристической деятельности, оценивается инвестиционное вложение в туристический сектор, исследуется роль инноваций в развитии туризма.

Здесь оценивается состояние доходов и расходов туристических предприятий в динамике. Исследуется инвестиционный и инновационный потенциал туристического сектора.

**В третьей главе**, названной «Пути эффективного развития туризма в условиях глобализации» обоснуется концептуальный модель эффективного развития туризма в Азербайджане, подготовлен организационно-экономический модель развития туризма.

Отмечается необходимость создания инновационно-инвестиционного фонда. На основе инновационного подхода разработан механизм эффективного развития туризма.

**В заключительной** части работы даны выводы и предложения, полученные в результате проведенного исследования

məqsədəuyğun olardı. Eyni zamanda, regional turizmin maliyyə təminatının yaxşılaşdırılmasında bu sığorta şirkətlərinin vəsaitləri də bir mənbə kimi istifadə edilə bilər.

Ümumilikdə, tədqiqatın nəticələri qarşılıqlı əlaqədə olaraq, qloballaşma şəraitində turizmin səmərəli inkişafının təmin edilməsinin elmi-metodoloji əsasını formalaşdırır. Fikrimizcə, qloballaşma şəraitində regionda turizmin səmərəliliyinin yüksəldilməsinə konseptual yanaşma, əhalinin maraqları baxımından onların istirahətinin təmin edilməsinə yönəldilən və regionda yüksək reytinqə malik olan müasir turizm sisteminin formalaşması gələcəkdə tədqiqatların daha geniş və fərqli bir prizmadan yanaşılmasına və öyrənilməsinə əsas ola bilər.

Dissertasiya işinin mövzusu üzrə aşağıdakı elmi əsərlər nəşr olunmuşdur:

1. Qurbanov F.Ə., Qurbanov P.Ə., Əliyev R.N. Turizm fəaliyyətinin iqtisadi mexanizmi - AMEA – nın İqtisadiyyat İnstitutu. Elmi əsərlər. – Bakı: 2012, №4 – səh. 237-242.

2. Qurbanov F.Ə. Turizmin fəaliyyət mexanizmi - Qərb Universiteti. “Elmi əsərlər” jurnalı. – Bakı: 2014, №1 – səh.26-34.

3. Гурбанов Ф.А. Рекламный и туристский бизнес - I Международная научно – практическая конференция “Инновационные процессы развития социально – культурного сервиса и туризма в современном мире”- Новокузнецк: 2014 – с.29-41.

4. Qurbanov F.Ə. Turizmin davamlı inkişafına təsir edən amillər - Azərbaycan Əmək və Sosial Münasibətləri Akademiyası “Əmək və Sosial Münasibətlər”. elmi – prektiki jurnal. – Bakı: 2015, №1.- səh 96-101.

5. Qurbanov F.Ə. Turizm sektorunun inkişaf istiqamətləri - Azərbaycan Əmək və Sosial Münasibətləri Akademiyası.-“Əmək və Sosial Münasibətlər” elmi – praktiki jurnal. – Bakı: 2015, №1 – səh.113-116.

6. Qurbanov F.Ə. Turizm sektorunun davamlı inkişaf amilləri - “Kooperasiya” elmi – praktiki jurnal.– Bakı: Azərbaycan Kooperasiya Universiteti. –2016. №3. – səh.31-37.

7. Ф.А. Курбанов. Концептуальная модель эффективного развития туризма в Азербайджане журнал «Экономика и предпринимательство» Москва: 2017 с.1142-1146.



alimlərin elmi tədqiqatları və konsepsiyaları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclis tərəfindən qəbul edilmiş qanunlar və normativ aktlar, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin normativ sənədləri təşkil edir.

Tədqiqat prosesində elmi abstraksiya, qruplaşdırma, müqayisəli və sistemli təhlil, statistik təhlil, SWOT təhlil, modelləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabatları, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin məlumatları, World Travel and Tourism Council hesabatı və internet materialları təşkil edir.

**Dissertasiya işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- turizmin, iqtisadiyyatın mühüm sahəsi kimi mahiyyəti, xüsusiyyətləri və sosial-iqtisadi sistem kimi nəzəri əsasları müəyyənləşdirilmişdir;
- turizmin inkişafına təsir edən amillər sistemləşdirilmişdir;
- turizmdə tətbiq edilən innovasiyaların təsnifatı təqdim edilmişdir;
- turizmin inkişafının SWOT təhlilinin nəticələri qiymətləndirilmişdir;
- Azərbaycanda turizmin səmərəli inkişafının konseptual modeli hazırlanmışdır;
- turizmin regionda davamlı inkişafının təşkilati-iqtisadi modeli təklif edilmişdir;
- regional turizmə investisiya qoyuluşunun vəziyyəti qiymətləndirilmişdir;
- ölkədə turizmin inkişafı istiqamətində təklif və tövsiyələr işlənmişdir.

**Tədqiqatın nəzəri və təcrübəvi əhəmiyyəti.** İşin nəzəri əhəmiyyəti ondadır ki, Azərbaycanda turizmin vahid bir sistem kimi innovativ yanaşma əsasında inkişafının təmin olunması istiqamətləri müəyyənləşdirilmişdir.

Tədqiqatın təcrübəvi əhəmiyyəti onun nəticələrinin turizmin respublikada inkişafı və regionlarda idarə edilməsi istiqamətində istifadə edilməsi ilə bağlıdır. İşin əsas müddəaları turizm siyasətinin formalaşmasında, onun qanunvericilik bazasının təkmilləşdirilməsində, turizmin regionlarda inkişafı, idarəetmə və investisiya qərarlarının qəbul edilməsi, innovasiya strategiyasının, eyni zamanda turizmin səmərəli inkişafı üçün məqsədli proqramların formalaşmasında istifadə oluna bilər. Bu nəticələr turizm sahəsinin

problemlərini və onların həlli yollarını axtarmaq üçün müvafiq regionlar və sahə idarəetmə orqanları üçün əhəmiyyətlidir.

Tədqiqatın əsas nəticələri bir sıra turizm kompaniyalarının fəaliyyətində istifadə olunaraq müəyyən müsbət nəticələr əldə olunmuşdur (Arayış №27 - 18.04.2017-ci il, Arayış №17 - 30.03.2017-ci il).

Dissertasiya işinin əsas müddəaları dərc olunmuş 7 məqalə və tezisdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla, özündə 22 cədvəl, 7 şəkil və 4 sxemi əhatə edir. Dissertasiya işi 143 səhifə həcmində olub, 119 ədəbiyyatı özündə əks etdirir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə səviyyəsi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları və informasiya bazası, işin elmi yeniliyi şərh edilir.

Dissertasiya işinin "Qloballaşma şəraitində turizmin inkişafının nəzəri – metodoloji əsasları" adlanan I fəslində turizmin mahiyyəti, xüsusiyyətləri və sosial-iqtisadi rolu, regionda turizmin davamlı inkişafına təsir edən amillərin təsnifatı, qloballaşma şəraitində beynəlxalq turizmin inkişaf meylləri tədqiq olunur.

Müasir insanın həyati keyfiyyəti kimi öz asudə vaxtından səmərəli istifadə etmək üçün turizmə xüsusi əhəmiyyət verməsi hökumətləri bu tələbatı nəzərə almağa, onun reallaşmasını dəstəkləməyə çağırır. Sosial turizm cəmiyyətin aztəminatlı üzvlərinin hüquqlarının təmin olunması məqsədilə istifadə olunmalıdır. İnsanların fiziki və psixoloji sağlamlğına təsir edən turizm sosial bərabərliyə, əmək kollektivinin fəallığına, fərdi və ictimai rifah halının yüksəlməsinə də təsir edən amil kimi tanınır. Turizm tələbinin ödənilməsi üçün lazım olan müxtəlif xidmətlər yeni iş yerləri üçün mənbə rolunu oynayan fəaliyyət növləri yaradır. Bu səbəbdən, inkişaf səviyyəsindən asılı olmayaraq, turizm bütün ölkələrdə sosial inkişafın vacib elementi hesab olunur.

Dünya təcrübəsi göstərir ki, turizm ehtiyatlarının mövcudluğu iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrə də dünya turizm bazarında xüsusi mövqe əldə etmək imkanı verir. Bu baxımdan, Azərbaycanın zəngin turizm resurslarına malik olması, ölkədə milli turizm bazarının formalaşması və dünya turizm bazarında özünə-



yaradar. Turizmin belə inkişafının təmin edilməsi isə dəyişən turist tələbatının maksimum ödənilməsinə: turist xidməti göstərənlər-mənfəət əldə edilməsinə, hakimiyyət orqanları - vergi daxilolmaları şəklində stabil gəlir, yerli əhali - turist infrastrukturundan şəxsi məqsədlərdə istifadə etmək imkanına malik olurlar. Turist fəaliyyətinin ayrı-ayrı obyektlərinin məqsədə çatması regionun mədəni irsinin, ekoloji vəziyyətinin, turist resurslarının qorunmasını təmin edəcəkdir.

Dissertasiya işinin sonunda elmi cəhətdən əsaslandırılmış, təcrübəvi əhəmiyyəti olan bir sıra nəticələr çıxarılmış və konkret təkliflər verilmişdir.

Qloballaşma şəraitində turizmin davamlı inkişafının təmin edilməsi baxımından, ona innovasiyalı yanaşmanın tətbiqinin zəruriliyi ön plana çəkilmiş və müəyyən edilmişdir ki, birincisi, turistlərin fiziki və mənəvi tələbatını ödəmək üçün zəruri resurslar olmalıdır. Resurslardan səmərəli istifadə etmək üçün regionda innovasiya potensialının tərkib hissəsi olan elmi-texniki, investisiya, əmək, ərazi, təşkilati-idarəetmə, informasiya potensialının səmərəli tətbiqinin zəruriliyi göstərilir.

Turizm xidmətlərinin inkişafında Türkiyə Respublikasının təcrübəsinin tətbiqi xüsusilə məqsədəuyğun olardı. Belə ki, Türkiyədə "Bələdiyyələrin sosial təsisləri" deyilən xüsusi obyektlər milli adət-ənənəyə uyğun, yüksək qonaqpərvərliklə fəaliyyət göstərərək, əhalinin bütün təbəqələri üçün əlverişli qiymətlərlə xidmət göstərir. Təcrübəyə uyğun olaraq, turizm obyektlərinin fəaliyyət göstərdiyi Quba-Xaçmaz, Lənkəran, Qəbələ, Şəki-Zaqatala və digər regionlarda bələdiyyələrin nəzdində müvafiq sosial obyektlərin fəaliyyətinin təşkili məqsədəuyğun olardı. Bu, həm əhalinin aztəminatlı və orta təbəqəsinin turizmdə iştirakına şərait yarada, həm də qiymətlərin tənzimlənməsində müəyyən rol oynaya bilər.

Tədqiqat prosesində turizmin səmərəli inkişafının regionun resurs imkanları nəzərə alınaraq, turizm sistemində maraqların razılaşması əsasında qarşılıqlı əlaqədə olan elementləri özündə əks etdirən təşkilati-iqtisadi mexanizm işlənmişdir. Belə bir yanaşma əsasında turist fəaliyyətinin ayrı-ayrı subyekt və obyektləri qoyulan məqsədə nail ola bilər və məhdud resurslar çərçivəsində innovasiyaları turizmin təkrar istehsal prosesinə tətbiq edə bilərlər. Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələrdə sığorta şirkətlərinin vəsaitlərindən, investisiya keyfiyyətindən istifadə edilməsinə imkan verən hüquqi və iqtisadi mexanizmin yaradılması

qiymətləndirilməsi, xarici mühitin öyrənilməsi vacibdir. Belə ki, turist tələbatının ödənilməsi üçün regionun resursları, o cümlədən turist resursları, digər regionların resursları turist məqsədindən asılı olaraq formalaşır və istifadə edilir.

Bu məqsədlə, turist resurslarının istifadəsi və qorunması şəraitində həm onların qiymətləndirilməsi, həm də aşkar edilməsi ilə bağlı məsələlər həll edilməlidir. Qeyd etmək lazımdır ki, turizmin inkişafında əsas şərtlərdən biri turist resurslarının mərhələli və hərtərəfli qiymətləndirilməsidir. Belə ki, təhlil əsasında turizmin konkret regionda necə inkişaf etdirilməsi, məhz turizmin hansı növlərinin, hansı həcmdə və bu məqsədlə nəyin zəruri olduğu müəyyən edilir. Turizmin idarə edilməsi ilə məşğul olan təşkilatlar regiona gələn turistlərin yerləşdirilməsi, qidalanması, nəqliyyat, dincəlmək, informasiya və digər xidmətlərin göstərilməsini tam aydınlığı ilə təsəvvür etməlidirlər.

Turistlərin tələbatının ödənilməsi dərəcəsi və turist bazarının tədqiqi bir tərəfdən turizm müəssisələrinin, fəaliyyəti turizmlə bağlı olan investorlar, maliyyə təşkilatları, sahibkarlar, təchizatçılar, podratçılar və yerli idarəetmə təşkilatlarının birgə qərar qəbul etməsinin obyektiv zəruriliyi ilə bağlıdır; digər tərəfdən isə, regionda turizmin innovasiyalı inkişaf strategiyasının işlək mexanizmini hazırlamağa imkan verir. Yalnız innovasiya prosesinin bütün elementlərinin (obyekt və subyektlər) qarşılıqlı təsirini əks etdirən mexanizm turizmin keyfiyyətcə inkişafını göstərən əhəmiyyətli sinergetik səmərəyə gətirib çıxara bilər.

İnnovasiya strategiyasının reallaşdırılması turizm sisteminin bütün elementlərinin təkrar istehsalını təmin edə bilər. Belə ki, burada innovasiyaların tətbiqi (blok 15) müəyyən edilmiş məqsəd və işlənmiş prinsiplərə əsaslanaraq innovasiyaların səmərəli istifadəsinə istiqamətlənir. Belə ki, innovasiyanın həyat tsiklini innovasiya dəyişikliklərinin bütün tsiklləri üzrə ardıcıl olaraq nəzərdən keçirmək olar. İnnovasiya tsiklləri onun yaradılma mərhələləri, tətbiqi, praktiki cəhətdən reallaşdırılmasından ibarətdir. O isə öz növbəsində onlardan istifadə metodlarının təkmilləşdirilməsini nəzərdə tutur (blok 14). Onlar qabaqcıl elmi biliklərə, həmçinin vahid xidmət və ya vahid məhsula sərf edilən ayrı-ayrı resursların mütərəqqi norma və normativlərinə əsaslanmalıdırlar.

Beləliklə, elmi biliklərin innovasiyaya ötürülməsinin təşkilati-iqtisadi mexanizminin formalaşdırılması ilə bağlı təklif edilən konseptual yanaşma regionda turizmin davamlı inkişafı üçün şərait



məxsus yer tutması üçün geniş imkanlar yaradır. Mövcud turizm resurslarının aşkara çıxarılması, qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması Azərbaycanda turizmin inkişafının strateji məqsədi kimi qarşıya qoyulmuşdur.

Müasir turizm aparılan sosial siyasət nəticəsində insanlara əsas insan hüquqları kimi istirahət, asudə vaxt və haqqı ödənilən məzuniyyətlərin verilməsi ilə əlaqədar meydana çıxmışdır. Turizm dövlətlər və insanlar arasında qarşılıqlı anlaşmanın və şəxsiyyətin inkişaf amilinə çevrilmişdir. Turizm iqtisadi baxımdan səmərəli olmaqla yanaşı, həm də mədəni və milli dəyərlərə malikdir ki, bu da turizmin iqtisadi amillərin təsiri ilə yarana biləcək mənfi təsirlərdən qorunmasını tələb edir. Buna görə də, dövlət orqanları və operativ turizm sektoru lazımi istiqamətdə sərmayə qoyuluşlarını müəyyənləşdirərək turizmin inkişafına öz töhfələrini verməlidirlər və bu, dövrün-zamanın aktual tələblərindən irəli gəlir.

Qloballaşma və inteqrasiya kimi proseslərin dünyada insanların yerdəyişməsini, bir ərazidən digər əraziyə müxtəlif məqsədli hərəkətlərini intensivləşdirməsi bir sıra xidmət sahələrinin də sürətli inkişafını zəruri bir prosesə çevirmişdir. Belə sahələrdən biri də XXI əsrdə dünya iqtisadiyyatının daha sürətlə inkişaf edən sahələrindən olan, önəmli dövriyyə, yüksək mənfəətlilik və s. baxımdan iqtisadi inkişaf perspektivlərinin fenomeni hesab edilən turizm sektorudur.

Təhlil nəticəsində belə qənaətə gəlmək olur ki, turizm, sosial-iqtisadi sistem-regionun tərkib hissəsini təşkil edən böyük bir sistemdir. Burada infrastruktur komponentlərin birbaşa və dolayı yolla turist xidmətlərinə təsir göstərən sahələrin sayı artır. Bu isə turizmi yeni inkişaf edən bir sistem kimi xarakterizə edir ki, onun fəaliyyəti nəticəsində əvvəllər məlum olmayan xüsusiyyətlər aşkar edilir. Zənnimizcə, belə bir xüsusiyyətlərdən biri də innovativlikdir. Bu xüsusiyyət yeni elementlərin tətbiqi nəticəsində uzun dövr ərzində turizm sahəsinə marağın artmasına imkan verir.

Davamlı inkişaf modeli geniş inkişaf etmiş və sivilizasiyanın inkişafının yeni modeli kimi qəbul edilir. Hazırda turizmin davamlı inkişafı ilə bağlı çoxlu sayda beynəlxalq proqramlardan istifadə olunur. Avropada 17 layihə bu məsələyə həsr olunmuşdur. Davamlı inkişaf kateqoriyasının təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bu kateqoriyanı formalaşdıran bütün səbəblər, o cümlədən əhalinin artım meyli, sənayeləşmə ətraf mühitə mənfi təsir göstərir. Lakin unutmaq olmaz ki, ekoloji davamlı inkişaf iqtisadi və sosioloji davamlı inkişafla bağlıdır. Rus alimləri K.Y.Kondratyev və

L.P.Romanyuk davamlı inkişafın belə bir izahını vermişlər: Davamlı inkişaf, hər şeydən əvvəl, elə bir sosial-iqtisadi inkişaf rejimidir ki, burada təbii resursların və ətraf mühitin idarə edilməsi məsələlərinin həllində özünə nəzarət təmin edilsin. Resurslardan istifadə sosial bərabərlik və insanların hüquqlarının təmin edilməsi məqsədinə istiqamətlənməlidir.Qeyd edilir ki, turizmin davamlı inkişafı, ilk növbədə, resurslardan səmərəli istifadəyə əsaslanmalıdır, başqa sözlə, resursların istehlakı müəyyən qədər məhdudlaşdırılmalıdır. Resurslar insan tərəfindən əsaslı təsirə məruz qalmamalı və bərpa olunmalıdırlar.

Regionda turizmin davamlı inkişafının amilləri və onlar arasında əlaqəni aşağıdakı şəkildə müşahidə etmək olar (Sxem 1).




Sxem 1. Regionda turizmin davamlı inkişaf amilləri

Ölkənin ümumilikdə və xüsusilə turizmin müasir inkişaf sürətinin təhlili göstərir ki, diversifikasiya və inteqrasiya sosial-iqtisadi sistemlərin davamlı inkişafının ayrılmaz tərkib hissəsini təşkil edirlər. Bu anlayışların mahiyyətini nəzərdən keçirərkən belə nəticəyə gəlirik ki, onların təsiri altında turizmin davamlı inkişafının novasiya amili formalaşır. Bu amilin mahiyyəti ümumilikdə turist sənayesi və ayrı-ayrı turist məhsullarının rəqabətqabiliyyətliliyinin artması istiqamətində turist fəaliyyətində müxtəlif yeniliklərin tətbiqini



Hesab edirik ki, turizmin inkişafına dəstək kimi innovasiya-investisiya fondunun yaradılması məqsədəuyğun olardı. Bu fondun əsas funksiyası regionda turizmin inkişafının strateji plan və proqramlarının tam və ya hissə-hissə maliyyələşdirilməsi və onun reallaşdırılmasına nəzarət, turizm biznesində yeni istiqamətlərin inkişafı, fəaliyyət göstərən turist və qeyri-turist firmalarına dəstək, regionda hər hansı bir firmanın inkişafının təşviqi olacaq. Fondun rolu ondan ibarət olar ki, yuxarıda göstərilmiş təşkilati-iqtisadi modelin həm bütöv bir sistem kimi, həm də hər bir elementi üzrə fəaliyyəti aktivləşdirəcək. Bu fondun təşkilati-hüquqi forması bütün maraqlı tərəflərin dövlət qeyri-kommersiya tərəfdaşlığı ola bilər. Bütün zəruri informasiyaya malik olmaqla, innovasiyanın işlənməsi və tətbiqində dövlət vəsaitləri (məsələn, yolların təkmilləşdirilməsi), hətta bank kreditləri də iştirak edə bilər.

Regionda turizmin davamlı inkişaf məqsədindən irəli gələrək, strategiya turist xidmətlərinin formalaşması ilə bağlı məsələlərin həllinə yönəldilməlidir. Bu isə dünya turist bazarının rəqabət mühitində fəaliyyət göstərməsinə imkan verər, maksimal olaraq turistlərin arzularına uyğunlaşdırılar, həmçinin destinasiya resurslarını maksimal olaraq cəlb edə bilər. Bu baxımdan, regionda turizmin inkişafına cavabdeh olan təşkilatlar öz regionunun xüsusiyyətləri və maraqlı yerləri üzrə vahid bir qərara gəlməlidirlər. Bu isə böyük ehtimalla turistləri maraqlandırar və cəlb edər.

Müəyyən region, şəhər və ya inzibati-ərazi vahidi ilə ifadə olunan cəlbediciliyi (attract) inkişaf etdirilməlidir ki, bu da turizmin inkişafına və yeni turistlərin cəlb edilməsinə şərait yarada bilər. Məhz bu zaman turist məhsulunun seçimi ilə bağlı düzgün qərarın qəbul edilməsi üçün, ilk növbədə, turistlərin istəkləri və maliyyə imkanları nəzərə alınmalıdır. Bununla bağlı turizmin regionda səmərəli təşkilati-iqtisadi mexanizminin innovasiya yanaşması əsasında formalaşması problemi meydana çıxır.

Fundamental əhəmiyyət kəsb edən turist tələbatının öyrənilməsi və təhlili turist resurslarının formalaşması üçün zəruridir. Belə ki, turist tələbatının mövcud resursların həcminə uyğun olaraq formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Nəzərə alsaq ki, turist tələbatı dinamikdir və bu tələbatın ödənilməsi üçün təkcə regionun resursları kifayət deyil. Bu məqsədlə, konkret regionda istirahət üçün turist marağının formalaşmasına təsir göstərən digər ərazilərin resurs potensialının öyrənilməsi və

ləşdirilməsi regionda turizmin davamlı inkişafı istiqamətində mühüm mərhələdir. Bu isə turizmdə baş verən mexanizm və proseslərin elmi cəhətdən öyrənilməsini tələb edir. Turizmin innovasiyalı davamlı inkişafını təmin etmək üçün qarşıya qoyulan məqsədə uyğun olaraq metodoloji yanaşma dəyişən turist tələbatının dinamikliyi və tsiklikliyinə, turist xidmətlərinin zəruriliyi və kafiliyinə, istehlak olunan əsas turist xidmətlərinin xüsusiyyəti və keyfiyyətinə uyğun olmasına və onların vaxtında təqdim olunmasına əsaslanmalıdır.

Cədvəl 2.

İnnovasiya yanaşması əsasında turizmin inkişaf problemlərinin həlli istiqamətləri

| Problem | Problemin standart həlli | İnnovasiya yanaşması əsasında problemin həlli |
|---|---|---|
| Turist resurslarının istifadəsi | Turist marşrutlarının formalaşması | Turist marşrutlarının turistlərə məlum olmayan yerlər üzrə və ya attraktiv tədbirlərdən istifadə etməklə formalaşması (hadisələrin yenidən qurulması, folklor konsertlərinin təşkil edilməsi və s.) |
| İnfrastrukturun inkişafı (xidmətin keyfiyyətinin təmin edilməsi) | Otellərin timsalında: | |
| | Otellərdə mənəvi cəhətdən köhnəlmiş avadanlıqların olması (televizor, kompüter, bronlaşdırma sistemi və s.); işçilərin idarə edilməsində müasir metodlardan istifadə edilməməsi | Otellərin ETT-nin nailiyyətlərindən müştərilərin sorğusuna əsasən istifadə edilməsi, eyni zamanda xidmətlərin erqonomik və rahat xidmətlərdən istifadə edilməsi; yeni və müxtəlif xidmətlərin işlənməsi və təklif edilməsi |
| Normativ-hüquqi bazanın formalaşması | Normativ-hüquqi sənədlərin formalaşmasında köhnə informasiyalardan istifadə; yerli xüsusiyyətləri nəzərə almadan inkişaf proqramlarının işlənməsi | Konkret regionda turizmin inkişafının detallar üzrə təhlil edilməsi; ictimai təşkilatların, maraqlı kommersiya təşkilatlarının normativ hüquqi sənədlərinin hazırlanmasına cəlb edilməsi; biznes layihələrin normativ sənədlərə daxil edilməsi |
| Turizm sferasında kadrların hazırlanması | Tədris prosesində köhnə proqramlardan istifadə edilməsi | Nəzəri və praktiki biliklərin vizual vasitələrdən istifadə etməklə birləşməsi; distant təhsildən istifadə |



nəzərdə tutur. Bu amil həm maddi xarakter daşıyaraq yeni turist məhsullarının yaradılması və tətbiqində, həm də qeyri-maddi xarakter daşıyaraq yeni turist xidmətlərinin formalaşmasında özünü büruzə verir. Eyni zamanda, novasiya amili turist müəssisələrinin təşkilati-idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi baxımından yeni idarəetmə formaları və metodlarının tətbiqini təcəssüm etdirir. Hə bir amil turizmin inkişafına güc və vaxt baxımından müxtəlif cür təsir edir. Lakin turist fəaliyyətinin təşkilinin səmərəliliyini yüksəltmək üçün bu amilləri qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazımdır ki, bunun da nəticəsində amillər arasında qarşılıqlı əlaqə formalaşır. Müxtəlif amillər arasında kombinasiyalar müxtəlif xarakter daşıyır. Məsələn, novasiya amili bütün digər amillərlə əlaqədardır. Burada aşağıdakı əlaqələri ayırmaq olar:

- turist amili-novasiya amili yeni turist məhsullarının təklifi hesabına turistin tələbatının ödənilməsi. Qeyd edək ki, bu əlaqə turizm sistemində mühüm əhəmiyyət kəsb edir. Belə ki, regionda turizmin davamlı inkişafını təmin etmək üçün bu amillər hərəkətverici qüvvədirlər;
- sosial (məsələn, turizmdə yeni təhsil standartlarının işlənməsi və tətbiqi) ;
- iqtisadi (məsələn, regionda turizmin inkişafına çəkilən xərclərin azaldılmasına imkan verən yeni idarəetmə metodlarının tətbiqi);
- informasiya (məsələn, elmi-texniki işləmələrlə bağlı informasiya) və s.

Əldə edilmiş nəticələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, elmi-texniki tərəqqi və sosial-iqtisadi tərəqqi turizmin inkişafına stimul versə də, ekologiya, mədəniyyət və sosiologiyada ciddi problemlər yaranmağa başladı. Bu problemlərin aradan qaldırılması ilə bağlı XX əsrin ortalarında turizm sahəsində radikal yeniliklər tətbiq edilməyə başlandı.

Turizm sektoru qloballaşma prosesinin əsaslı şəkildə inkişafı, elmi-texniki tərəqqinin inkişafı, informasiya və kommunikasiyanın yayılması, institusional məhdudiyyətlərin zəifləməsi, bunun əsasında xarici-iqtisadi əməliyyatlarda transaksiya xərclərinin aşağı salınması və dünya bazarına çıxışı ilə xarakterizə edilir. İqtisadi inkişafın sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçidlə bağlı xidmət sektorunun rolu artır. Dünyada gedən qlobal struktur dəyişiklikləri prosesində emal sahələri və xidmət, xüsusilə turizm üstünlük təşkil edir. Son dövrlərdə bu sektora kapital və ixtisaslı işçi qüvvəsi axını güclənmişdir.

Beynəlxalq turizm həm satıcı üçün gəlir mənbəyi, alıcılar üçün maddi və mənəvi tələbatın ödənilməsi, həm də ölkələr arasında, işgüzar əlaqələrdə informasiyanın yayılma mənbəyi kimi çıxış edir. Ayrı-ayrı ölkələrin turist təsərrüfatları bu və ya digər halda qloballaşma prosesinə cəlb edilir. İctimai şüur və dəyərlərin üstünlük təşkil etdiyi qlobal sivilizasiyanın formalaşma meylləri müşahidə edilir ki, burada da turizm böyük rola malikdir. Qeyd edək ki, burada inteqrasiya olunmuş turist müəssisələrinin sayı durmadan artır. Ayrı-ayrı dövlətlər hətta yerli turist müəssisələrini xarici bazarda idarə etmək baxımından öz güclərini itirirlər.

Turizm sferasında qloballaşma milli səviyyədə turist bazarının açıqlıq səviyyəsinin artmasında, turizm sektoruna xarici investisiyaların xüsusi çəkisinin, beynəlxalq ödənişlərin artmasında özünü büruzə verir. Qlobal proseslər rəqabəti gücləndirir, maliyyə-investisiya resurslarının idarə edilməsinə gətirir ki, bu da öz növbəsində xarici təhlükələrdən qorunmaq üçün xarici kapitaldan asılılığın minimumlaşdırılmasını tələb edir. Müsbət meyllərə: iqtisadi artım və sosial tərəqqi, qlobal informasiyalaşma; telekommunikasiya vasitələrində texnoloji inkişaf; sərhədlərin açıqlığı və sərhədin keçilmə prosedurunun sadələşdirilməsi və s. aid edilir.

Qloballaşmanın mənfi cəhətlərinə aşağıdakıları aid etmək olar:

Qlobal turist kompaniyalarının milli turizmin inkişafına dağıdıcı təsiri; turizm fəaliyyətini məhdudlaşdıran beynəlxalq terrorizm; makroiqtisadi tarazlığın pozulması, "kasıb" ölkələrin sayının artması nəticəsində dünyanın turizm sənayesində bütün regionların uzaqlaşdırılması və s. Ümumilikdə, turist müəssisələrinin xarici iqtisadi fəaliyyəti aşağıdakılarla xarakterizə olunur:

- ölkəyə valyuta axınının mənbəyini təşkil edir;
- turist tələbatının spesifikliyi hesabına tədiyə balansının formalaşma vasitəsidir;
- əhalinin məşğulluğunun yüksəldilməsi vasitəsidir;
- xarici ticarətin aktivləşdirilməsi vasitəsidir;
- struktur dəyişikliklərə təsir vasitəsidir;
- investisiyaların cəlb edilməsinin aktivləşdirilməsi vasitəsidir;
- iqtisadi indiferent resursların (dəniz çimərlikləri, tarixi abidələr və s.) səmərəli istifadəyə cəlb edilməsi;
- ölkənin imicinin, ictimai fikrin formalaşmasına təsir edən alət.

Beləliklə, turizmin qloballaşması beynəlxalq turizm regionlarının iqtisadi cəhətdən qarşılıqlı asılılığının artması, turist bazarlarının açıqlığının artması, müxtəlif turist xidmətləri bazarında turist



çatışmayan cəhətlərini qiymətləndirmək və konkret müəssisə, destinasiya, region üçün müvafiq innovasiyanın seçilməsi imkanı yaranır.

Turizmdə fəaliyyət göstərən innovasiya proseslərinə müxtəlif amillər təsir göstərərək qeyri-müəyyənlik şəraiti formalaşdırır və çoxlu sayda riskləri şərtləndirirlər. Turizmdə innovasiya fəaliyyətində qərarların qəbulunun səmərəliliyinin yüksəldilməsi üçün həm ayrılıqda riskləri, həm də onların qarşılıqlı əlaqəsi və bir-birinə təsir dərəcəsi nəzərə alınmalıdır. Ərazi xüsusiyyətləri və regionun innovasiya imkanları nəzərə alınmaqla, mövcud problemlərin həllinə imkan verən, eyni zamanda turistlərin tələbatına cavab verən innovasiyalar ölkənin sosial, iqtisadi və ekoloji səmərəliliyini təmin etməyə qadirdir. Bu isə öz növbəsində turizmdə təkrar istehsal prosesinin səmərəliliyinin yüksəldilməsinə və regionda turizmin davamlı inkişafının təmin edilməsinə gətirib çıxarar.

Qeyd edək ki, turizmin inkişafı ilə yanaşı, onun davamlı inkişaf problemləri meydana gəlir, inkişaf edir və aktuallaşır. Bu problemin həlli mövcud metodlarla mümkün olmadığından, bu sahənin rəqabətqabiliyyətinin aşağı düşməsinə, keyfiyyətli turist xidmətlərinə tələbatın tam təmin edilməsi imkanlarının aşağı düşməsinə gətirib çıxarır. Bunları nəzərə alaraq, dövlət tərəfindən turizmin ölkədə davamlı inkişafını təmin etmək üçün zəruri tədbirlər həyata keçirilməlidir.

Ölkənin mövcud potensialından elmi cəhətdən əsaslandırılmış səmərəli istifadəsi, ənənə və beynəlxalq təcrübəni nəzərə alaraq, yerli turizm mərkəzləri yerli tələbatı və xarici turist tələbatını ödəyə bilər.

Hesab edirik ki, turizmin təşkilinin rasional sisteminin regional səviyyədə yaradılması ərazidə turist potensialından səmərəli istifadəyə, turizm sferasının obyekt və subyektləri ilə qarşılıqlı əlaqəni, əməkdaşlığı və koordinasiyanı təmin edər. Bu sistemin yaradılması üçün müxtəlif metodiki yanaşmalar mövcuddur ki, bunlardan da proqram-məqsədli metod daha məqsədəuyğundur. Bu metodun turizmdə tətbiqi nəticəsində regionda turizmin məqsədli inkişaf proqramı hazırlanır.

Regional proqramlaşdırmanın təkmilləşdirilməsi kompleks məsələlərin həllini nəzərdə tutur. Bu məsələlər təşkilati strukturların yenilənməsi, idarəetmənin texnoloji və metodoloji dəyişikliklər, stimul sisteminin hazırlanması ilə bağlıdır. İqtisadi cəhətdən əsaslandırılmış və məntiqi cəhətdən yekunlaşmış məqsədin müəyyən-

turizmin inkişafında risk amillərinə təsirin səmərəliliyi onun təsnifatı ilə müəyyənləşdirilir. Bu isə nəticələrin xarakterini əvvəlcədən görməyə, onları qiymətləndirməyə və nəzarət etmək üçün tədbirlər görməyə imkan verir.

Turizmdə innovasiyadan istifadənin təklif edilən modelinin son mərhələsində nəticənin qiymətləndirilməsi baş verir. Belə ki, burada əsas məqsəd yalnız turizmdə innovasiyaların tətbiqinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi deyil, məhz 3-cü bloka daxil olan (regionda turizmin fəaliyyət və inkişaf problemlərinin həllinə yönəldilmiş məqsəd və vəzifələrin əldə edilmiş nəticələr) məsələlərlə müqayisəsi ön plana keçir.

Qeyd edilənləri nəzərə alaraq, innovasiyalardan istifadə əsasında turizmin inkişafının səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi üçün aşağıdakı tələblərə əməl olunmalıdır:

– ümumilikdə, turizm sahəsinin və ya ayrı-ayrı turist müəssisələrinin inkişaf istiqamətlərini seçərkən əsas amil kimi insanların tələbatına diqqət yetirmək lazımdır ki, bu da müəssisənin innovasiya tipli inkişafa keçməsində həlledici stimuldur. Beləliklə, istehlakçı mühitin monitorinqinin keçirilməsi zəruridir. Burada tələbatın mahiyyəti araşdırılmalıdır;
– turizmin sosial-iqtisadi sistemin ayrılmaz tərkib hissəsi olduğunu nəzərə alsaq, regionun xüsusiyyətləri və potensialı, həmçinin onun innovasiya aktivliyi, yeni innovasiya ideyalarının regionda tətbiq edilmə imkanları müəyyən edilməlidir;
– digər sahələrdən bilik və təcrübənin cəlb edilməsi turizm sahəsində nəinki texnoloji bilikləri tətbiq etməyə, həm də bu sahədə münasibətlərin inkişafına gətirir ki, bu da turizm sahəsində bir sıra təcrübi problemlərin səmərəli həllinin yollarının axtarılmasına gətirib çıxarır;
– bütün innovasiyaların qarşılıqlı əlaqəsini, əvvələ, turizm sisteminin bütün elementlərində, ikincisi, yüksək əlaqəyə malik olan regionun bütün sahələrində nəzərə almaq lazımdır. Belə ki, innovasiyalar bir sahədə köklü dəyişikliklərə, digər sahədə isə innovasiya proseslərinin aktivləşdirilməsinə gətirib çıxara bilər;
– müəyyən amillərin təsiri nəticəsində heç də bütün innovasiyalar başlanğıcda nəzərdə tutulan xüsusiyyətləri sonda özündə saxlaya bilmirlər. Bu isə innovasiyaların alternativ variantlarının axtarılması zəruriliyini ortaya çıxarır. Belə ki, innovasiyanın müxtəlif spektrləri təklif edildikdə, onların müsbət və



məhsullarının ticarət mexanizminin unifikasiyasına gətirib çıxarır.

Beynəlxalq turizm dünya üzrə ÜDM-in 10,2%-i təşkil edir. Rəsmi statistikaya görə, dünya üzrə bu sahədə 299 milyon nəfər çalışır. Son 10 ildə turizmin ÜDM-də payı hər il 4% artmışdır. 2016-cı ildə turizmə yatırılan investisiyaların həcmi 806,5 milyard ABŞ dolları olmuşdur. Bu isə ümumi investisiyaların 4.4%-ni təşkil edir.

Beynəlxalq turizmin regional quruluşunun dinamikası aşağıdakı diaqramda öz əksini tapmışdır.




Mənbə: UNWTO hightlights 2017

Dioqram 1. Dünya ölkələrinə gələn xarici turistlərin regionlar üzrə bölgüsü.

Müəyyən edilmişdir ki, böhrandan sonrakı illərdə turizmdən əldə edilən gəlir 1.235 trilyon ABŞ dolları təşkil etmişdir. Bu, 2010-cu ilə nisbətdə 3.0% artım deməkdir. İlk dəfə 2012-ci ildə turist sayı ən yüksək həddə çatmış 1 trilyon ABŞ dolları həddini keçmişdir. Həmin il Çin turizm sahəsinə 102 milyard dollar xərcləməklə ABŞ və Almaniyanı qabaqlamışdır. Çinlə yanaşı inkişaf edən ölkələrdən Rusiya və Braziliya da turizm sahəsində xərcləri artırmışdır. Avropa bu inkişafda öncül olmuşdur

Azərbaycan dünyanın 26 ölkəsi ilə (Birləşmir Ərəb Əmirlikləri, Küveyt, Rusiya, Səudiyyə Ərəbistanı, Avstriya, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman Sultanlığı, Macarıstan, Koreya, İsveçrə, Yaponiya, İndoneziya, Bruney Krallığı, Malayziya, San Marino, Mərakeş, Argentina, Meksika, Makedoniya, İsveç, Filippin, Kuba və

Xorvatiya) turizm sahəsində əməkdaşlıq sazişi bağlamışdır. Ölkənin turizm potensialının beynəlxalq səviyyədə tanınması məqsədilə ölkəyə gələn xarici turizm şirkətləri və kütləvi informasiya vasitələri üçün info-turlar təşkil olunur. Beynəlxalq sahədə əməkdaşlığı artırmaq üçün Azərbaycan Respublikasının Turizm və Mədəniyyət Nazirliyi Ümumdünya Turizm Təşkilatı (ÜTT), Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlət Birliyinin Turizm Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s. kimi beynəlxalq təşkilatlarla turizm sahəsində əməkdaşlığa nail olunması, turizm sahəsinə şamil olunan proqramlara qoşulma, beynəlxalq tədbirlərdə iştirak şansı qazanmaq, təklif və layihələrin hazırlanmasında iştirak və əməkdaşlığa dair razılıqlar əldə edilməsi istiqamətində işlər aparır.

Beynəlxalq turizm bazarı struktur baxımından son dövrlərdə sürətlə inkişaf etmişdir və inkişaf etməkdə davam edir. Beynəlxalq turizm bazarı ölkələrə turist axını istiqamətində və onun intensivliyində həlledici rol oynayır.

Hazırda turizmin dövlət tənzimlənməsinin təşkilinə bir neçə yanaşma mövcuddur. Belə ki, bəzi inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi yoxdur, bazar subyektləri isə özləri operativ tənzimləməni həyata keçirirlər. Turist xidmətləri bazarında dövlət tənzimlənməsi həyata keçirilən ölkələrdə isə iki modeldən istifadə edilir: xüsusi dövlət hakimiyyəti orqanları və ya müxtəlif profilli təşkilatlar tərəfindən həyata keçirilir.

Ölkədə turizmin inkişafı və beynəlxalq turizm əlaqələrinin yaradılması prosesində əsas öhdəlik milli turizm təşkilatlarındadır. Ölkənin turizm sisteminin inkişafı və fəaliyyəti onlar tərəfindən tənzimlənir və turizm sisteminin inkişafında müstəsna rola malikdirlər. Bu təşkilatlar əsasən turizm nazirlikləri və onlarla əməkdaşlıq edən digər milli təşkilatlardır. Qloballaşma şəraitində milli turizm təşkilatlarının əsas öhdəliklərinə aşağıdakıları aid etmək olar:

- daxili turizmin həvəsləndirilməsi;
- milli və beynəlxalq səviyyədə turizm xidmətlərinin təşkili;
- turizmin ölkə xaricində inkişafına şərait yaratmaq;
- hökumətin turizm maraqlarını təmsil etmək;
- turizmi inkişaf etdirmək və planlaşdırmaq;
- turizm şirkətlərinin, təşkilatlarının tənzimlənməsi və nəzarətinin həyata keçirilməsi;
- turizm üzrə statistikanın aparılması və aparılmış tədqiqatların nəticələrinin nəşri;



Aparılan təhlil əsasında turizmin fəaliyyət və inkişaf problemlərini aşkar etmək, eyni zamanda onların həlli istiqamətində məqsəd və vəzifələri müəyyənləşdirmək imkanları yaranır.

Beləliklə, regionda turizmin fəaliyyət və inkişaf problemi dedikdə, onun turizmin davamlı inkişafının qlobal məqsədi ilə ziddiyyətin olmasıdır ki, bu da turist xidmətlərində insanların artan tələbatının təmin edilməsində özünü büruzə verir.

Cədvəlin materiallarına əsaslanaraq regionda turizmin səmərəli inkişafına mane olan problemləri qruplaşdıraq. Onlardan əhəmiyyətlisi aşağıdakılardan ibarətdir:

- turist resurslarından səmərəli istifadə;
- infrastrukturun inkişafı (xidmətin keyfiyyətinin yüksəldilməsi);
- normativ hüquqi bazanın formalaşdırılması;
- turizm sahəsində kadr hazırlığı;
- turizm haqqında tam və əlverişli informasiyanın formalaşması;
- turistlərin təhlükəsizliyinin təminatı.

Qoyulan problemlərin səmərəli həlli istiqamətində əlverişli şəraitin yaradılması məqsədilə onların həll edilmə səviyyələrini müəyyən etmək lazımdır. Regional və yerli problemləri, müəssisə səviyyəsində problemləri fərqləndirmək lazımdır. Ekspertlərin təhlili göstərir ki, problemlərin 80%-i regional və yerli problemlər, yalnız 20%-i turist biznesi ilə bağlı problemlərdir. Lakin problemlərin yuxarıdakı kimi fərqləndirilməsinə baxmayaraq, mövcud şəraitdə yaranan problemlər öz həllini tələb edirlər. Belə ki, yaranan problemlərin aradan qaldırılması istiqamətində qoyulan məqsədin reallaşdırılması prosesinin səmərəliliyinin yüksəldilməsi üçün müasir innovasiya metodlarından istifadə etmək lazımdır ki, bu da az xərclə yüksək nəticələr əldə etməyə imkan verir.

Beləliklə, turizmdə innovasiya prosesinin təmin edilməsi üçün sosial-iqtisadi sistemin bütün elementlərinin maraqlarının, regionun ərazi xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Belə ki, bu sistem xarici sistemin təsirlərinə məruz qala bilər. Yuxarıda sadalanan amillər turist sisteminin fəaliyyət göstərməsi və inkişafı üçün qeyri-müəyyənlik şəraitini formalaşdırır. Qeyri-müəyyənlik idarəetmə qərarlarının qəbul edilməsi prosesində xarici və daxili mühit haqqında düzgün informasiyanın və ya heç bir informasiyanın olmaması ilə xarakterizə edilir. Qeyri-müəyyənlik riskin yaranmasına gətirib çıxara bilir.

İnnovasiya prosesinin reallaşdırılmasına risklərin mənfi nəticələrini azaltmaq üçün risklərin idarə edilməsi zəruridir. Regionda

aşkar etməyə və qruplaşdırmağa imkan verir. Eyni zamanda, xarici mühitdə baş verən dəyişikliklər əsasında potensial təhlükəni və regionda turizmin gələcək inkişaf imkanlarını müəyyən etməyə şərait yaradır. Ölkədə turizmin fəaliyyəti və inkişafının SWOT təhlili 1 saylı cədvəldə verilmişdir.

Cədvəl 1.

Azərbaycanda turizmin inkişafının SWOT təhlili

| **Güclü tərəflər** | **İmkanlar** |
|---|---|
| - zəngin mədəni-tarixi və təbii irs;<br>- regionlarda yeni turist məhsulunun yaranması;<br>- turist bazarında rəqabət yaradan özəl turist firmalarının sayının artması yeni və maraqlı turist proqramlarının artmasına gətirir;<br>- turizm sektoru üçün ali və orta təhsil ocaqlarında hazırlanan kadrlar. | - ümumi emosional vəziyyətin yüksəlməsində cəmiyyətin tələbatının yaranması baxımından dar ixtisaslaşma imkanı;<br>- daxili və gəlmə turizmi inkişaf etdirməklə turist firmalarının regionların sosial-iqtisadi inkişafına yatırımlarının artırılması;<br>- beynəlxalq turizm sərgilərində Azərbaycanın milli ekspozisiyalarının təşkili<br>- hər il beynəlxalq turist sərgilərinin keçirilməsi. |
| **Zəif tərəfləri** | **Təhlükələr** |
| - yeni tip proqramların işlənməməsi, ixtisaslaşdırılmış turizmin inkişafı (məsələn, kənd turizmi) istiqamətində turist potensialının yararsızlığı;<br>- turizm bazarının monitorinqi ilə əlaqədar statistik göstəricilərin hesablanmasının, turizmin iqtisadi rolunun qiymətləndirilməsinin vahid metodunun olmaması;<br>- turizm infrastrukturunun kifayət qədər inkişaf etməməsi;<br>- turist xidmətlərinin qiymətlərinin yüksək olması (otellərdə yerləşmə, qidalanma, nəqliyyat və s.);<br>- turist sənayesinin bütün sahələrində göstərilən xidmətlərin keyfiyyətinin aşağı olması. | - peşə ixtisas təhsili sistemində kadr hazırlığının olmaması;<br>- praktik biliklərin kifayət qədər olmaması;<br>- turizm sahəsində qanunvericilik bazasının mükəmməl olmaması;<br>- miqrasiya təhlükəsi olan ölkələrlə viza siyasətinin təkmil olmaması;<br>- ölkə daxilində avia və dəmiryol daşımalarının təkmil olmaması;<br>- qeyri-kommersiya dövlət reklamının xarici və daxili bazarda qənaətbəxş olmaması;<br>- turistlərin şəxsi təhlükəsizlik səviyyəsinin yüksək olmaması;<br>- dünya maliyyə-iqtisadi böhranı;<br>- əhalinin həyat səviyyəsinin qeyri-stabil olması;<br>- dünya valyutalarının qeyri-stabil olması. |



– gömrük, sərhəd prosedurlarının asanlaşdırılması;
– turizm, xüsusilə beynəlxalq turizm üzrə yerli kadrların hazırlanması;
– təbii şəraiti qorumaq;
– mədəni, tarixi, təbii turist resurslarının qorunması və tanıdılması.

Son dövrlərdə turist sayının artması turizm sferasına cəlb olunan maddi, əmək və maliyyə resurslarının həcmini o dərəcədə də artırmışdır ki, bu ərazi iqtisadiyyatının strukturuna, iqtisadi və sosial münasibətlər sisteminə təsir göstərməyə başlamışdır.

Dissertasiya işinin "Azərbaycanda turizmin mövcud vəziyyətinin qiymətləndirilməsi" adlanan II fəslində turizm fəaliyyətinin müasir vəziyyəti, turizm sektoruna investisiya qoyuluşunun vəziyyəti təhlil edilib, qiymətləndirilir, turizmin davamlı inkişafında innovasiyaların rolu araşdırılır.

Mehmanxana və mehmanxana tipli müəssisələrdə maliyyə təsərrüfat fəaliyyətinin əsas göstəricilərini təhlil edərkən bu tipli müəssisələrin istismarından əldə olunan gəlirin 2005-2016-cı illərdə 2,7 dəfə artdığı müşahidə olunur. Bu dövrdə nömrələrin satışından əldə edilən gəlir 2,4 dəfə, müalicə-sağlamlıq xarakterli xidmətlərdən əldə edilən gəlir 54,6% azalmış, qida məhsullarının satışından əldə edilən gəlir isə 3,8 dəfə artmışdır. Turizm müəssisələrinin istismarından əldə olunan gəlirin dinamikada dəyişməsini izləsək, görərik ki, nömrələrin satışından əldə edilən gəlirin xüsusi çəkisi 2005-ci ildə 71% təşkil edirdisə, 2016-cı ildə 63,3%, müalicə-sağlamlıq xidmətindən əldə olunan gəlirin xüsusi çəkisi 2005-ci ildə cəmi gəlirin 8%-ni təşkil edirdisə, 2016-cı ildə 1,4%-ə qədər azalmışdır. Mehmanxana və mehmanxana tipli müəssisələrin istismarına çəkilən xərclər 2005-2016-cı illərdə 3,6 dəfə artmış, o cümlədən əmək haqqına çəkilən xərclər 5,8 dəfə, əsas fondların amortizasiyasına çəkilən xərclər 1,5 dəfə, bütün sığortalar üzrə sosial ayırmalara çəkilən xərclər 9,6 dəfə artmışdır.

Əsas fondların amortizasiyasına çəkilən xərclərin xüsusi çəkisi 2005-ci ildəki 17%-dən 2016-cı ildə 6,8%-ə qədər azalmış, əmək haqqına çəkilən xərclərin xüsusi çəkisi müvafiq olaraq 19%-dən 30,5%-ə qədər artmışdır.

Tədqiqat aparılan dövrdə turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı 81-dən 243-ə qədər, yəni 2,3 dəfə artmışdır. Bu sahədə fəaliyyət göstərən işçilərin sayı isə 646 nəfərdən 1586 nəfərə qədər, yəni 2,4 dəfə artmışdır.

Turizm fəaliyyəti ilə məşğul olan turizm təşkilatlarının (turoperator və turagentlərin) ümumi gəliri 2005-2016-cı illərdə 6,02 milyon manatdan 36,5 milyon manatadək, yəni 6,17 dəfə artmış, turist xidmətlərindən əldə olunan gəlir 4 milyon manatdan 35,1 milyon manatadək, yəni 8,7 dəfə artmışdır. Tədqiqat aparılan dövrdə turist xidmətlərinə çəkilən xərclər 3,8 milyon manatdan 29,4 milyon manatadək artmış, yəni 7,6 dəfə yüksəlmişdir. Müvafiq dövrdə turist xidmətlərinin tərkibində material xərclərinin xüsusi çəkisi 2005-ci ildə 14%-dən 2016-cı ildə 11,3%-ə qədər azalmış, əmək haqqı xərcləri müvafiq olaraq 398,1 min manatdan 4330 min manatadək, yəni 10,8 dəfə bu xərclər artmış, turizm xidmətlərinə çəkilən kənar təşkilatların xərcləri 3,4 dəfə, nəqliyyat xidmətinə çəkilən xərclər 4,4 dəfə, yəni 141,6 min manatdan 634 min manatadək artmış, ekskursiya xidmətlərinə çəkilmiş xərclər 2,5 min manatdan 74,9 min manat, yəni 30 dəfə artmışdır. Kənar təşkilatların xərclərinə viza xidmətinə çəkilən xərcləri də aid etmək olar. Bu xərclər 2,1 min manatdan 53,9 min manat, yəni 25,6 dəfə artmışdır. Turizm bazarında turist məhsulu istehsalında istifadə olunan digər xərclər də mövcuddur ki, bunların da həcmi tədqiqat aparılan dövrdə 178,5 min manatdan 58,7 min manatadək, yəni 3 dəfə azalmışdır.

Nəqliyyat növlərinə görə turistlərin bölgüsündə ən yüksək xüsusi çəkiyə malik olan turistlər 2005-ci ildə 42% təşkil etməklə avtobus nəqliyyatından istifadə etmişdilərsə, 2016-cı ildə onların xüsusi çəkisi 19,8%-ə enmişdir. Bu isə hava nəqliyyatından istifadə edənlərin xüsusi çəkisinin 2016-cı ildə 66,9%-ə çatması ilə bağlıdır. Bu dövr ərzində hava nəqliyyatından istifadə edənlərin sayı 8,5 dəfə artmışdır. Minik avtomobillərindən istifadə edən turistlərin sayı müvafiq dövrdə 10,1% artmışdır. Bir neçə nəqliyyat növündən istifadə edən turistlərin sayı isə müvafiq dövrdə 40% aşağı düşmüşdür.

2016-cı ildə turizm sektorunda məşğul olan işçilərin sayı 2005-ci illə müqayisədə 940 nəfər və ya 2,4 dəfə artmışdır, ondan bilavasitə turizm fəaliyyəti ilə məşğul olanların sayı isə 744 nəfər və ya 2,3 dəfə artmışdır. Bu da ölkəmizdə fəaliyyət göstərən Turizm İnstitutunun hazırladığı mütəxəssis kadrların artması sayəsində baş vermişdir. Turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı, sahibkarlıq fəaliyyətinə ölkədə qayğının artmasının nəticəsində, əgər 2010-cu ildə 2005-ci ilə nisbətən 50% artmışdısa, 2016-cı ildə 2010-cu illə müqayisədə müvafiq olaraq 2,1 dəfə artım müşahidə olunmuşdur.






Sxem 3.Turizmin səmərəli inkişaf modeli.

Regionda turizmin inkişaf səviyyəsinin təhlilinin həyata keçirilməsində bir metod kimi SWOT təhlilindən istifadə edilir. Belə ki, bu metod turizm sistemində fəaliyyət göstərən güclü və zəif tərəfləri

Beynəlxalq təcrübə göstərir ki, iqtisadiyyatın uzunmüddətli inkişafı təkcə resurslarla təminatdan deyil, həm də innovasiya aktivliyindən asılıdır ki, bu da mövcud resursların bərpası və onlardan səmərəli istifadə üzrə yeni qərarların axtarışını dəstəkləyir.

Ənənəvi olaraq, innovasiyaların quruluşunda iki sahəni fərqləndirirlər: istehsal sferası və xidmət sferası. Bütün obyektiv xüsusiyyətlərinə görə, regionun sosial-iqtisadi sisteminin tərkib hissəsi kimi, turizm qeyri-istehsal sektoruna aiddir.

Turizmdə innovasiyaları təkcə kompyuter texnologiyaları sahəsində nəzərdən keçirmək düzgün deyil. Əslində, innovasiyalar keyfiyyətcə yeni turist məhsulu (xidməti) və ya innovasiya fəaliyyətinin başqa son nəticəsini xarakterizə edir. Bu isə bütövlükdə region və turizm sənayesi müəssisələrində yüksək səmərənin əldə edilməsi ilə turistlərin dəyişən tələbatlarını ödəyir.

Turizmdə innovasiyalar kompleks dəyişikliklərə gətirir və onun ardıcıl inkişafını təmin edir. Müasir şəraitdə turizmin inkişafının səmərəliliyini yüksəltmək məqsədilə bu inkişaf innovasiya xarakteri daşıyır. Bu isə yeniliklərin turizm sisteminin bütün elementlərinə daxil edilməsini tələb edir və turistlərin dinamik dəyişən tələbatları şəraitində məqsədə nail olma prosesinin səmərəliliyini yüksəltməyə imkan verir. Nəticədə, bütöv turist sisteminin davamlı inkişafını təmin edir.

Dissertasiya işinin «Qloballaşma şəraitində turizmin səmərəli inkişaf istiqamətləri» adlanan III fəslində Azərbaycanda turizmin səmərəli inkişafının konseptual modeli əsaslandırılır, turizmin inkişafının təşkilati-iqtisadi modeli hazırlanmışdır.

Regionda turizmin səmərəli inkişaf modelinin formalaşması turizmin fəaliyyəti və inkişaf səmərəliliyinə təsir edən amilləri aşkar etməyə, turist sisteminin ayrı-ayrı elementləri arasında əlaqəni təhlil etməyə imkan verər. Bu isə problemi aşkar etməyə, onları qruplaşdırmağa və istiqamətlərini müəyyənləşdirməyə, məqsəd və vəzifələri müəyyən etməyə imkan verər.

Regionda turizmin səmərəli inkişafının konseptual modeli aşağıdakı sxemdə verilir (Sxem 1). Birinci blokda turizmin inkişaf səviyyəsinin təhlili həyata keçirilir. Burada mövcud şəraitdə turizmin inkişafı üçün turizm sisteminin cari vəziyyəti müəyyənləşdirilir. Bu mərhələdə zəruri informasiya bazası toplanmalıdır ki, bu məlumat əsasında alternativ seçim həyata keçirilsin. Bu baxımdan, regionda turizmin inkişaf səviyyəsinin təhlili müxtəlif istiqamətlərdə həyata keçirilir və turist sahəsinin vəziyyəti kompleks qiymətləndirilir.



Qeyd etdik ki, turizm sektorunun inkişafı ölkəyə kapital axınının artmasına, valyuta məzənnəsinin stabilləşməsinə və valyuta ehtiyatlarının artmasına gətirib çıxarır. Bu baxımdan, xarici vətəndaşların ölkəyə turist kimi gəlməsinə nəzər yetirsək, görərik ki, mehmanxana nömrələri üçün ödənilmiş məbləğ 2016-cı ildə 111,1 milyon manata çataraq 2,4 dəfə artmışdır. Turistlərə göstərilən xidmətlərə görə ödənilmiş məbləğin ən yüksək göstəricisi 2007-2008-ci illərdə müşahidə edilmişdir. Lakin sonrakı dövrlərdə mehmanxana tərəfindən satılmış mal və göstərilmiş xidmətə tələb azalmış və 2016-cı ildə 29,3 milyon manat təşkil etmişdir.

Azərbaycanda turizm potensialının beynəlxalq aləmdə tanınması, turizmin potensial sahələrinin inkişaf etdirilməsi, turizm infrastrukturunun müasir tələblərə cavab verməsi, yeni infrastrukturun qurulmasının təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilir. Qeyd edək ki, ölkənin iqtisadi potensialının 50%-dən çoxu regionlardadır, eyni zamanda aqrar sahə ilə məşğul olan əhalinin 47%-i əmək qabiliyyətlidir. Bunları nəzərə alsaq, kənd turizminin də inkişafını təmin etmək gərəkdir.

Azərbaycanın son dövrlərdə investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlər beynəlxalq təşkilatlar tərəfindən xüsusi qeyd olunmuşdur. Belə ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan “Doing Business 2009”, “Doing Business 2010” hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edilmişdir. “Doing Business 2011” hesabatında Azərbaycan 183 ölkə arasında 54-cü, investorların müdafiəsi göstəricisi üzrə 36-cı, makroiqtisadi stabillik göstəricisi üzrə 10-cu yeri tutmuşdur.

Beynəlxalq turizm bazarında əsas investisiya qoyuluşu iri transmilli korporasiyalar tərəfindən həyata keçirilir. Turizm sahəsinə investisiya qoyan transmilli korporasiyalar, sadəcə, kapital qoyuluşu yox, həmçinin yerli xidmət sektorunun inkişafı, turizm məhsullarının diversifikasiyası və standartların yüksəldilməsinə də müsbət təsir göstərir. Ölkə turizminə TMK investisiyalarının cəlb edilməsi həm də beynəlxalq turizm bazarında ölkənin tanınmasına imkan yaradacaqdır.

Turizm sahəsinə xarici investisiyalar əsasən mehmanxana və restoranlar kimi məhdud sahələrə qoyulur. Bunlara misal olaraq, son dövrlərdə ölkəyə daxil olan iri otel şəbəkələrini göstərmək olar: Hilton, Kempinski, Jumeirah, Marriot, Hyatt Regency, Holidays Inn və s. Bu otel şəbəkələrinin ölkədə öz filiallarını açması turizmə

müsbət təsir göstərmişdir. Belə ki, beynəlxalq səviyyəli tədbirlər və sərgilər Azərbaycanda keçirilməyə başlanmışdır. Bunun özü işgüzar turizmin inkişafına şərait yaradır. Həmçinin belə tanınmış otel şəbəkələrinin ölkədə olması xarici turistlərin tərəddüdlərini azaldır.

Azərbaycanda turizm sahəsinə qoyulan xarici kapital ildən-ilə artmaqdadır.

“World Travel and Tourism Council”un hesabatına əsasən, 2016-cı ildə turizmə investisiya yatırımı 2010-cu illə müqayisədə 3 dəfə artaraq 479,5 milyon manat təşkil etmiş və 2026-cı ilə 709,9 milyon manat olacağı proqnozlaşdırılır.

Turizmin dünya ölkələri sıralamasında 2016-cı il reytinqinə görə turizmin ÜDM-yə mütləq ifadədə töhfəsinə görə, reytinqdə Azərbaycan 136 yerdən 90 yerə sahib çıxaraq, 1,5% xüsusi çəkiyə malik olmuş, turizmin mütləq ifadədə iş yerlərinin açılmasında töhfəsinə görə 123 yerdən 86-cı yerə sahib olmuşdur. İnvestisiya qoyuluşu üzrə 149 ölkə arasında 89-cu yerə sahib olaraq 0,4% xüsusi çəkiyə malik olmuşdur.

Qeyd edilir ki, regionlarda turizmin inkişafı ölkənin iqtisadi və mədəni inkişafına əsaslı təsir göstərir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərmanında “regionların inkişafının davamlılığının təmin edilməsi”, “qeyri-neft sektorunun, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması” əsas məqsəd kimi qarşıya qoyulur. Proqramda regionlarda turizmin inkişafı prioritet məsələlərdən biri kimi qoyulur: “Qeyri-neft sektorunun inkişafı istiqamətində regionlarda turizmin inkişafı qarşıdakı illərdə prioritet olaraq qalacaq, turizm ehtiyatlarının genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan turizm xidmətləri və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, turizm obyektlərinin tikintisi ilə bağlı layihələrin icrası davam etdiriləcəkdir.

Vurğulanır ki, investisiya cəlb edilməsinə dair tədbirlər görülməmişdən əvvəl regional, sahə, qlobal səviyyədə turizm sahəsindəki trendlər öyrənilməlidir. Daha sonra ölkədəki turizm potensialına sahib ərazilərin, sahələrin, turizm növlərinin xəritəsi tərtib olunmalı, ölkədəki turizmin çətinlikləri, üstünlükləri, rəqabət vəziyyəti, potensialı haqqında məlumatlar dolğun şəkildə toplanmalıdır. Daha sonra isə ölkədəki beynəlxalq səviyyəli turizm layihələrinin həyata



keçirilə biləcəyi turizm sahələri müəyyən edilməlidir. Bütün bu tədbirlər həyata keçirildikdən sonra əldə edilən məlumatlara uyğun olan investisiya imkanlarının tanıdılmasına dair marketinq strategiyası hazırlanmalıdır.

İnnovasiyaların kompleks tətbiq edilmə qanunauyğunluqları və meyllərinin öyrənilməsi, eyni zamanda innovasiyaların idarə edilməsinin səmərəli metodlarının aşkar edilməsi turizmdə mürəkkəb metodoloji problemlərdir ki, onların həlli baxımından ilk növbədə təsnifləşdirilməsi tələb olunur.

Müxtəlif təsnifatların təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, tam və birmənalı turist sistemini əhatə edən innovasiya təsnifatını təklif etmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, təsnifat əlamətlərinin ümumiləşdirilməsi və sistemləşdirilməsi və bu əsasda elmi əsaslandırılmış innovasiya təsnifatının yaradılması praktik əhəmiyyətə malikdir ki, bu da turizmin inkişafı prosesində tətbiq edilir. Belə ki, bu təsnifat hər hansı bir yeniliyin əlamətlər üzrə xüsusiyyətlərini aşkar etməyə qadirdir. Beləliklə, innovasiyaların aşağıdakı təsnifatını təklif etmək olar.




Sxem 2. Turizmdə tətbiq edilən innovasiyaların təsnifatı.